# NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNDƏ ŞƏXSİYYƏT MƏSƏLƏSİ



Böyük mütəfəkkir Nizami Gəncəvini bizdən əsrlər ayırsa da, onun bədii-estetik ideyaları, dərin xəlqiliyi, vətənpərvərlik və beynəlmiləlçiliyi, xalqımıza bəxş etdiyi məhəbbət dolu poemaları indi də hər kəs üçün müasirdir, doğmadır.

Dahi şair və böyük tərbiyəçi olan N.Gəncəvi təhsil, təlim, tərbiyənin bir sıra ümumi məsələləri haqqında elə dəyərli fikir və ideyalar irəli sürmüşdür ki, bu gün də öz əhəmiyyətini itirməmişdir. Elmi pedaqogikanın qarşısında duran ən aktual problemlərdən biri şəxsiyyətin formalaşması məsələsidir. Məlum olduğu kimi, zaman-zaman bu barədə olduqca müxtəlif fikirlər irəli sürülmüş, fərqli nəzəriyyələr yaranmışdır. Həmin müxtəlifliyi tədqiq və təhlil edən müasir dövrün alim-pedaqoqları və psixoloqları şəxsiyyətin formalaşmasına təsir edən dörd əsas amili (irsiyyət, mühit, tərbiyə, fəaliyyət) qeyd edirlər. "Xəmsə"nin qeyd olunan problem baxımından təd qi qi və təhlili göstərir ki, filosof-şair və tərbiyəçi-pedaqoq olan dahi Nizami həmin amillərin hər bi rinin əhəmiyyətini sezmiş, poemalarında müvafiq dəyərli fikir və ideyaları irəli sürmüşdür [1,s. 8].

Mühit amilləri içərisində ictimai mühitin əhəmiyyətini daha yüksək qiymətləndirən şair-pedaqoq əsərlərində belə bir ideyanı aşılamaq istəyir ki, insanın mənəvi keyfiyyətlərinin formalaşmasında onu əhatə edən adamların rolu əvəzsizdir. Bütün poemalarında "Əgər insansansa, insanları sev" tövsiyyəsini verən humanist şair yaxşı adamlarla durub-oturmağı, bədəsil, zatı qırıq olanlardan uzaq olmağı yaxşı tərbiyənin əsas şərtlərindən biri hesab edir.

Mühitin rolu məsələsinə şair-pedaqoq "Leyli və Məcnun" poemasında daha geniş toxunmuş və anlatmağa çalışmışdır ki, pis mühit insana mənfi təsir göstərdiyi kimi, yaxşı mühit də müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına səbəb olur. Məsələn, "Məcnunun atasına cavabı" səhnəsində atası Məcnuna nə qədər yalvarsa da o, susuz səhradan və vəhşi heyvanlardan əl çəkib evə qayıtmağa razı olmur, atasına belə cavab verir:

Vəhşiylə dost olsa insan dünyada,
Vəhşi adətincə ömr edər o da.

Həmin səhnədə şair bir daha xatırladır ki, "Vəhşi ilə dost olan vəhşi də olar". "Yeddi gözəl" poemasında mühit amilinin əhəmiyyətini qeyd edərək, irsi imkanları toxuma, qeyri-sağlam mühiti "şoran torpağa" bənzədir və başa salmağa çalışır ki, şəxsiyyətin inkişafında yaxşı nəticə almaq üçün əlverişli şərait yaratmaq lazımdır [1,s.12].

Kamil insanın formalaşmasında elmin, təhsilin, biliklərə yiyələnməyin çox böyük rol oynadığını dönə-dönə qeyd edən şairin fikrinə görə insanı heyvanlardan fərqləndirən əsas əlamət onun ağlı, kamalıdır. Ağlın çırağı isə elmdir, bilikdir: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz"[1,s.12].

Şair-pedaqoq elmi-biliklərə yiyələnməkdə təşkil olunmuş təlimin əhəmiyyətini "Kamil insan" obrazı kimi yaratdığı İsgəndərin təlim alması səhnəsində konkret nümunələr əsasında göstərmişdir. İsgəndərin hərtərəfli inkişafını təmin etmək üçün atası onun təlimin yüksək biliyi ilə şöhrət qazanmış Niqumaş adlı alimə tapşırır. O, böyük zəhmət hesabına İsgəndərin bütün elmlərin sirlərinə bələd olmasını, "hər gizli biliyə" çatmasını təmin edir. Elə buradaca mütəfəkkir şair-pedaqoq şəxsiyyətin hərtərəfli inkişafında tərbiyənin də rolunu xüsusi qeyd edir. Şəxsiyyətin formalaşmasında təhsil, təlim, tərbiyə ilə yanaşı, özünütərbiyənin rolunu yüksək qiymətləndirən müəllif "Xəmsə"də bu barədə bir sıra dəyərli psixoloji yönümlü fikirlər söyləmişdir. Məsələn, "Yeddi gözəl" poemasında şair "özünü başa düşən, dərk edən, özünü yaxşı tanıyan insana ölüm yoxdur" deyir:

Kim ki, öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur, o ölməz haşa.

Nizami göstərir ki, özünü tanımayan, öz nöqsanını görmək istəməyənlər, öz hərəkətlərinə tənqidi yanaşmayanlar bədbəxt insanlardır, onlar şəxsiyyət səviyyəsinə yüksələ bilməyəcəklər.

Çağdaş dövrün pedaqoq və psixoloqları şəxsiyyətin formalaşmasına təsir edən amillər sırasında fəaliyyət və ünsiyyət amilini xüsusi qeyd edirlər. Halbuki dahi şair hələ doqquz əsrə yaxın bundan əvvəl bu amillərin, xüsusilə əmək fəaliyyətinin rolunu "Xəmsə"də "həyat- əməkdir" ideyası ilə şərh etmişdir. Böyük mütəfəkkirin fikrincə, əməksevərlik, çalışqanlıq, halal əməkdən psixoloji və estetik zövq almaqla məşğul olmaq insanda müsbət əxlaqi keyfiyyətlər formalaşdırır [3, s.169].

Şair doğruçuluq xüsusiyyətini insanın müsbət şəxsi keyfiyyətlərini əks etdirən və onu hər an qoruyan "zireh" adlandırır. Əyriliyin, yalanın isə mənfi psixoloji xüsusiyyət olduğunu açıb göstərir. Həyatın başlıca şərtlərindən olan doğruçuluq xüsusiyyətini "vicdan tərəzisi" adlandırır. O, öz əsərlərində xarakterdə düzlük və doğruçuluq xüsusiyyətinin formalaşmasını insanın həyatda ucalmağının zəruri şərtlərindən biri hesab edir. Bu vacib əxlaqi keyfiyyətlərin psixoloji mahiyyətini və əhəmiyyətini dərindən anladan dahi Nizami xatakterində olan məhz doğru sözləri və düz əməlləri sayəsində ən uca ad olan "kamil şəxsiyyət" adını qazanmışdır [2,64s].

N.Gəncəvinin yaradıcılığı bir tərəfdən xalqın təfəkkür tərzinin inkişafına təkan vermiş, digər tərəfdən bu əsərlərin özündə həyat reallıqları öz əksini tapmışdır. Psixoloji fikrin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində şairin demək olar ki, bütün əsərləri qiymətli bir mənbə, əvəzsiz xəzinədir.

### ƏDƏBİYYAT


1. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, «Adiloğlu» nəşriyyatı, 2008, 244 s.
2. Əlixanova G. Nizami Gəncəvinin əsərlərində psixoloji dəyərlər, s.18. Azərbaycan dili və ədəbiyyat tədrisi 2021, №1 (267), 52-69
3. Əlizadə Ə. Şirinova Z. (2006). Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, ADPU. 277 s.



***Sevinc MUXTAROVA,***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, biblioqrafiyaşünaslıq şöbəsi, kiçik elmi işçi***